2020.- 8 oktyabr. S. 1.

ƏDALƏT

# "Münaqişənin tənzimlənməsi ilə bağlı danışıqlar mənasızdır"



Ermənistanın indiki siyasəti fonunda Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqlar mənasızdır.

Bunu Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu TASS agentliyinə müsahibəsində deyib.

Səfir bildirib ki, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Rusiyanın Xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı zamanı tərəflərin tezliklə danışıqlar masasına qayıtmasının zərurəti vurğulanıb:

"Amma Ermənistan qoşunlarının hərbi əməliyyatların coğrafiyasını genişləndirdiyi, təxribatçı şəkildə Azərbaycanın Dağlıq Qarabağla sərhəd olmayan şəhər və rayonlarına hücum etdiyi, beynəlxalq hüququ kobud şəkildə pozduğu və əvvəl də dedyim kimi, hərbi cinayətlər işlədiyi bir vaxtda hər hansı danışıqların aparılması mənasızdır.

Prezident İlham Əliyev öz müsahibələrində açıq şəkildə bildirib ki, münaqişənin gərginləşməsinə görə bütün məsuliyyəti üzərində daşıyan Ermənistan beynəlxalq hüquqa əməl etmədikcə, beynəlxalq vasitəçilər ərazilərin işğalda azad olunmasına ciddi təminatlar vermədikcə və qoşunların Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının konkret cədvəli təqdim olunmadıqca hərbi əməliyyatların başa çatması və hər hansı danışıqlar mümkün deyil".

## "Ermənistanın raket zərbələri bu ölkənin hərbi doktrinasının aqressiv xarakterini nümayiş etdirdi"



**Ermənistan tərəfindən raket zərbələri bu ölkənin hərbi doktrinasının aqressiv xarakterini nümayiş etdirdi.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz "Twitter" səhifəsində yazıb. O bildirib ki, qoşunların təmas xəttində vəziyyətin gərginləşməsinədək Ermənistan Azərbaycanın enerji infrastrukturuna, xüsusilə də Mingəçevir su anbarına raket zərbələri ilə təhdid edirdi:

**"Son dövrlərdəki raket zərbələri bu ölkənin hərbi doktrinasının aqressiv xarakterini nümayiş etdirdi".**